*UOT 378*

***Məhəmməd Məhəməli oğlu Çunayev***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Lənkəran Dövlət Universiteti*
*orcid.org/0000-0001-5643-4826*
https://doi.org/10.69682/azrt.2024.91(1).77-83

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONAL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏKİ MÖVCUD PROBLEMLƏR, QARŞIDA DURAN VƏZİFƏLƏR

***Мухаммед Магамали оглы Чунаев***
*докторант по программе доктора философии*
*Ленкоранский Государственный Университет*

# ТЕКУЩИЕ ПРОБЛЕМЫ В РЕГИОНАЛЬНЫХ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ, ПРЕДСТОЯЩИЕ ЗАДАЧИ

***Mahammad Mahamali Chunayev***
*doctorial student in the program of doctor of philosophy*
*Lankaran State University*

# CURRENT PROBLEMS IN REGIONAL HIGHER EDUCATION INSTITUTIONS OF THE REPUBLIC OF AZERBAIJAN, FORTHCOMING TASKS

**Xülasə**. Məqalədə ölkəmiz müstəqillik qazandıqdan sonra regional ali təhsil müəssisələrinin təşkili, inkişafı, bu müəssisələrin ölkə əhalisinin təhsil almasında yüksək rola malik olması, əhalinin təhsilə əlçatanlığı və təhsilin fasiləsizliyini təmin etmək istiqaməti ön plana çıxarılmış, mövcud problemlərə, qarşıda duran vəzifələrə aydınlıq gətirilmiş, regional ali təhsil müəssisələrini inkişaf etdirərək gələcəkdə dünya təhsil sisteminə inteqrasiyasını həyata keçirmək üçün yeni fəaliyyət planı hazırlamağı, eyni zamanda gələcəkdə abituriyentlərin regional ali təhsil müəssisələrinə cəlb etmək üçün xüsusi təqaüdlər və bir sıra imtiyazların ayrıla bilməsi faydalı ola biləcək təkliflər irəli sürülmüşdür.
***Açar sözləri:*** *təhsilin qloballaşması, regional ali təhsil müəssisələri, elektron kitabxana, beynəlxalq əlaqələr, əmək bazarı, təhsilin fasiləsizliyi, davamlı inkişaf, magistratura, doktorantura, elmi-texniki tərəqqi*

**Резюме.** В статье на первый план выдвинуты организация и развитие региональных высших учебных заведений после обретения нашей страной независимости, высокая роль этих учреждений в получении образования гражданами страны, доступности и непрерывности образования даны разъяснения существующих проблем и, стоящих перед ними задач, разработан новый план действий по развитию региональных высших учебных заведений и их интеграции в мировую систему образования в будущем, в то же время были выдвинуты предложения, по выделению специальных стипендий и ряда льгот с целью привлечения абитуриентов в региональные высшие учебные заведения в будущем.
***Ключевые слова:*** *глобализация образования, региональные высшие учебные заведения, электронная библиотека, международные отношения, рынок труда, непрерывность образования, устойчивое развитие, магистратура, докторантура, научно-технический прогресс*

**Summary.** The article highlights the organization and development of regional higher education institutions after our country gained independence, the high role of these institutions in education for citizens of the country, accessibility and continuity of education, clarifications of existing problems and tasks facing them, a new action plan for the development of regional higher education institutions and their integration into the global system education in the future, at the same time, proposals were put forward, by allocating special scholarships and a number of benefits in order to attract applicants to regional higher education institutions in the future.
***Keywords:*** *globalization of Education, regional higher education institutions, Electronic Library, international relations, labor market, continuity of education, sustainable development, master's, doctoral studies, scientific and technological progress*

Dünyanın inkişaf etmiş ölkələri tərəqqiyə məhz təhsilin yüksək səviyyəsi sayəsində nail olmuşlar. Böyük həcmli, mütərəqqi məqsədlər naminə təhsilin inkişaf etdirilməsi üçün ona qoyulan sərmayələrin yatırılması prosesi hal-hazırda da daha da sürətlə davam etməkdədir. Bu proses XX əsrin başlanğıcından böyük vüsət almış, əsrin ortalarından və XXI əsrin əvvəlində daha da genişlənməyə başlamışdır. Dünya ölkələri XXI əsri qloballaşma əsri kimi qəbul edirlər. Bu məsələ özünü daha çox təhsil sahəsində göstərir. Belə ki, sənaye və sosial sahələrdə inkişaf etmiş dünya ölkələrinin təhsil sistemləri və daha məhsuldar idarəetmə mexanizmləri, burada baş verən yeniliklər digər ölkələrin, o cümlədən bizim – Azərbaycan Respublikasının təhsil prosesinə də birbaşa təsir göstərir. Bunları nəzərə alan ölkəmiz dünya təhsil sisteminin son yeniliklərini izləyərək ölkə təhsil sisteminə tətbiq olunması yollarını axtarır və bununla bağlı silsilə islahatlar həyata keçirir.

Təhsil sahəsində ölkəmizin qarşıya qoyduğu əsas məqsəd yüksək inkişaf səviyyəsinə çatmaq, texnoloji yeniliklərə imza atmaq, regionların iqtisadi-sosial inkişafına nail olmaq, əhalinin sosial-maddi vəziyyətindən asılı olmayaraq bütün təbəqələrinin təhsilin bütün səviyyələrinə əlçatanlığını təmin etməkdir. “Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir” [1]. Müstəqilliyin ilk illərində Azərbaycanın bir çox regionlarında yeni ali təhsil müəssisələrinin təşkil olunması və bu təhsil müəssisələrində əmək bazarına uyğun ixtisasların qəbulunun həyata keçirilməsi bunun bariz nümunəsidir.

Keçən əsrin sonlarında texnoloji yeniliklərin, internetin kəşfi elmi-texniki tərəqqinin yüksəlməsinə təkan verdi. Bütün sahələr üzrə informasiya əldə etmək daha asan hala gətirildi və qloballaşmaya bir başa təsir etdi. Cəmiyyətlər bu nailiyyətlər sayəsində informasiya bolluğuna çataraq dünyanın istənilən bir nöqtəsində baş verən hadisələrdən qısa müddət ərzində xəbərdar olur və ona münasibət bildirmək imkanı qazanır. Qloballaşma prosesində elmi-texnoloji yeniliklər, xüsusilə də informasiya texnologiyaları insan həyatının bütün sahələrinə tətbiq olunur. Bu proses nəticəsində məhsuldarlıq artır, və daha yüksək uğurlar əldə olunur. Artıq qloballaşan dünyada bütün informasiya sərhədləri aradan qalxmışdır. Belə ki, dünyanın istənilən bir nöqtəsində baş verən müsbət və ya mənfi hadisənin təsiri tezliklə bütün dünyada hiss olunur. Buna Koronovirus pandemiyasını (COVİD-19) misal göstərmək olar. 2019-cu ilin dekabrında Çinin ucqar əyalətində başlanan yoluxucu xəstəliyin qısa müddət ərzində dünyanın bütün ölkələrinə yayılması və Koronovirus pandemiyası (COVİD-19) kimi özünü göstərməsi artıq qloballaşmanın bariz nümunəsidir.

Bu pandemiya insan həyatının bütün sahələrində, o cümlədən təhsil sahəsində də özünü qabarıq şəkildə göstərdi. Belə ki, sürətlə yayılan virus nəticəsində dünyanın bütün ölkələrində ənənəvi təhsil dayandırıldı. Lakin qısa zaman kəsiyində bu proses digər formatda-onlayn formatda bərpa edildi. Əslində bu əvvəlki onilliklərdə tez-tez səsləndirilən və bir çox ölkələrin təhsil sistemində tətbiq olunan distant təhsil-məsafədən təhsil prosesi idi. Zaman özü bu prosesə şərait yaratdı. Dünya təhsil sisteminin bu çətinliyi dəf etməsi artıq təhsilin bütün problemləri həll etmək iqtidarında olduğunu göstərdi. Bu problemin öhdəsindən dünyanın müxtəlif ölkələrinin təhsil sistemləri öz inkişaf səviyyələrinə uyğun olaraq fərqli şəkildə gəldi. İnkişaf etmiş ölkələrin təhsil sistemi demək olar ki, fors-major hallara daima hazır idi. Çünki əvvəlki illərdə belə bir təhsil formasının, yəni məsafədən təhsilin konsepsiyası işlənilmiş və bundan istifadə edilmişdi. Bu isə onlara hazırlanmış təcrübəni uyğun zamanda həyata keçirməkdə çətinlik törətmədi. Ona görə də həmin ölkələrin təhsili bu prosesdən az zərərlə çıxdı. Amma inkişaf etməkdə olan ölkələrin təhsil sistemi bu problemin öhdəsindən çətinliklə gələ bildi.

Azərbaycan iqtisadiyyatı, təhsili və insan fəaliyyətinin bütün digər sahələri dünya ölkələri ilə sıx bağlı olduğundan getdikcə genişlənən inteqrasiya proseslərinə görə bu pandemiya bütün sahələrə, eyni zamanda təhsil sisteminə də təsir etdi. İnkişaf etmiş ölkələrin təhsil sistemi ilə yanaşı ölkəmizin təhsil sistemi də zərər çəkdi. Bunun səbəblərini sadalasaq inkişaf etməkdə olan ölkələrdə olan problemlərin eynilərini görərik. Pandemiyanın ilk vaxtlarında təhsil sistemində baş verən çaşqınlıq, yaranan fasilə qısa müddət

ərzində bərpa olunsa da, müxtəlif regionlarda olan internet problemi təhsil alanların distant şəkildə tədrisə qoşulmalarını əngəllədi. Sonrakı müddət ərzində problemlərin əksəriyyəti həll olundu, paytaxt və regional ali təhsil müəssisələrində tədris prosesi qaydasına düşdü təhsil alan tələbələr məsafədən təhsilə normal şəkildə davam etdilər.

Bu pandemiya bəşəriyyətə növbəti dəfə təhsildə inkişafın, yeni tendensiyaların vacibliyini, əhəmiyyətini göstərdi. Bu baxımdan paytaxtda və regionlarda yerləşən ali təhsil müəssisələrinin qarşısında yeni vəzifələr, həll edilməli problemlərin olduğunu üzə çıxardı. Bütün ali təhsil müəssisələri növbəti belə gözlənilməz situasiyalara hazır olmalıdır. Bunun üçün ali təhsil müəssisələri qabaqcıl texnologiyalardan istifadə edərək yeni innovasiyaları təhsilə tətbiq etməli, kadr hazırlığını gücləndirməli, inkişafa aparan layihələr həyata keçirməlidir. Bu zaman ali təhsil müəssisələrinin hər bir tələbəsinin texniki avadanlıqla təmin olunmasına, İKT üzrə üzrə biliklərini artırmağa xüsusi diqqət ayrılmalıdır.

"Təcrübə və araşdırmalar göstərir ki, müasir dövrdə cəmiyyətin siyasi, sosial-iqtisadi, mənəvi həyatının inkişafında təhsilin rolu getdikcə artır. Təhsil prioritet sahə kimi cəmiyyətin həyatına güclü nüfuz etməsi onun inkişafının başlıca əsası olması təhsilin məzmununa verilən tələblərin daim diqqətdə saxlanılmasını, praktik olaraq ona əməl olunmasını ön plana çəkir" [2].

Qloballaşma prosesində dünyada yayılan tendensiyalardan biri də inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələrin vətəndaşlarının təhsil almaq istəyidir. Buna son dövrlər dünyada gedən inkişaf, iqtisadiyyatın insan fəaliyyətinin bütün sahələrində gedən rəqabət prosesi, daha yüksək təhsil sayəsində daha çox imkanların əldə edilə bilməsi kimi amillər təsir edir. Bundan başqa yüksək təhsilli, bacarıqlı insanların daha perspektivli işləmə şansı, prestijli işlərə daha çox tələbin olması, insanların təhsilin səviyyəsi ilə vakant yerlərdə bir-birilə rəqabət aparmalarını və s. əlavə etmək olar. Daha bir məsələ dövrün tələblərinə və iş imkanlarına uyğun olaraq təhsil almaq istəyən şəxslərin öz dilindən başqa bir və ya bir neçə xarici dil bilmə istəyidir.

"Müasir dövrdə sosial-iqtisadi inkişaf dövründə rəqabətədavamlı milli iqtisadiyyatın qurulması, təhsilin keyfiyyətinin təmin edilməsi sahəsində beynəlxalq tendensiyaları nəzərə almadan səmərəli strateji və praktik tədbirlər görmədən mümkün deyil. Səbəb-nəticə bağlılığı tam öyrənilməsə də ölkədəki təhsilin keyfiyyəti, müddəti və davamlı iqtisadi artım bir-birilə düz mütənasibdir" [3].

Ölkəmizin 44 günlük qələbəsindən sonra qarşısında duran məqsədi geri qaytarılan torpaqlarda dağılmış infrastrukturu yenidən qurmaq və həmin regionların inkişafını hər cəhətdən təmin etməkdir. Bunun üçün xarici ölkələrdə özünü doğrultmuş təcrübələrə istinad edərək qarşıya qoyulmuş məqsədə çatmaq üçün xüsusi dövlət proqramlarını həyata keçirtmək lazımdır.

Dünya təcrübəsinə baxdıqda müəyyən etmək olur ki, regionların inkişafında ali təhsil müəssisələrinin rolu əvəzedilməzdir. Ölkəmizin regional ali təhsil müəssisələrində aparılan son islahatlardan sonra Bakı Dövlət Universitetinin Qazax filialı 2000-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi əsası qoyulmuş, 2015-ci ildə ADPU-nun Qazax filialı olmuş, 2016-cı ildən isə BDU-nun Qazax filialı kimi fəaliyyət göstərir. 2016-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala filialı təşkil olunmuşdur. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şəki filialı 1991-ci ildə BDU-nun Şəki filialı kimi fəaliyyətə başlamış, 2000-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun (AMİ) filialına çevrilmiş, 2015-ci ildə isə ADPU-nun Şəki filialı kimi fəaliyyətini davam etdirir. ADPU-nun Ağcabədi filialı Sovetlər dövründə – 1969-cu ildə Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi olaraq yaranmışdır. Sonralar ADPU-nun Şuşa filialına çevrilmiş, 2000-ci ildə AMİ Ağcabədi filialı olmuş, 2015-ci ildən isə ADPU-nun Ağcabədi filialı kimi fəaliyyətini davam etdirir. ADPU Cəlilabad filialı 2000-ci ildə təşkil olunmuş, ADPU Quba filialı ali təhsil müəssisəsi kimi 1991-ci ildə Azərbaycan Dövlət İncəsənət Universitetinin filialı olaraq fəaliyyətə başlamış, 2000-ci ildə AMİ Quba filialına çevrilmiş, 2015-ci ildən ADPU-nun tərkibinə daxil olmuşdur. ADPU Şamaxı filialı 2000-ci ildə eyni adla bu Universitetin filialı kimi yaradılsa da 2000-ci ildə AMİ-nin tərkibinə birləşdirilmişdi. 2015-ci ildə yenidən ADPU-tərkibinə keçmişdir. Gəncə Dövlət Universiteti-Sovetlər dövründə Müəllimlər İnstitutu olaraq yaranmışdır. Sonralar Gəncə Dövlət Pe-

daqoji İnstitutu olaraq fəaliyyəti göstərmiş, 2000-ci ildən isə indiki adla fəaliyyətini davam etdirir. Azərbaycan Texnologiya Universiteti 2000-ci ildə Azərbaycan Texnologiya İnstitutunun əsasında yaradılıb. Mingəçevir Dövlət Universiteti isə 2015-ci ildə təşkil olunmuşdur. Naxçıvan Dövlət Universiteti (NDU) 1990-cı ildə, Naxçıvan Müəllimlər İnstitutu isə (NMİ) 2000-ci ildə yaradılmışdır.

Yuxarıda sadalananlardan aydın olur ki, regional ali təhsil müəssisələrinin bir neçəsi hazırda paytaxtda yerləşən ali təhsil müəssisələrinin regionlardakı filiallarıdır. Bundan əlavə, regionda Lənkəran Dövlət Universiteti kimi tanınan böyük təhsil müəssisəsi yarandığı ildə filial kimi fəaliyyət göstərsə də, qısa müddətdən sonra müstəqil ali təhsil müəssisəsinə çevrilmişdir. Belə ki, 1991-ci il sentyabrın 25-də BDU-nun Lənkəran filialı kimi fəaliyyətə başlayan regional ali təhsil müəssisəsi 1 il sonra, 1992-ci ildən müstəqil regional ali təhsil müəssisəsinə çevrilərək Lənkəran Dövlət Universiteti adı altında fəaliyyətini davam etdirir. Buna səbəb bu təhsil müəssisəsinin təlim-tədris bazasının müasirliyi, müəllim-professor heyətinin yüksək səviyyədə olması, bu regionun və ətraf rayonların iqtisadiyyatının inkişafında, kadr hazırlığı sahəsində özünü doğrultması, regionda bu təhsil müəssisəsinə ehtiyacın olması və s. amilləri göstərmək olar.

Müstəqilliyə qədər Azərbaycan Sovetlərin tərkibində ikən özəl ali təhsil müəssisəsi mövcud deyildi, bu tendensiya müstəqillik qazandıqdan sonra qərb dəyərlərinin, Avropa və Amerika təhsilini ölkəmizdə tətbiq etmək arzusundan və zərurətindən irəli gəlirdi. Özəl ali məktəblərinin fəaliyyət istiqaməti qısa müddətdə özünü doğrultdu və belə ali təhsil müəssisələrinin sayı artmağa başladı. Özəl ali təhsil müəssisələrinin əsas səciyyəvi cəhətləri inkişaf etmiş ölkələrin qabaqcıl təhsil sistemlərinin burada tətbiq edilməsi, diplomlarının xaricdə tanınması, məzunlarının əmək bazarında yüksək rəqabət qabiliyyətliliyi idi. Buna görə az bir zamanda ölkə əhalisi arasında bu özəl təhsil müəssisələrinə maraq artan templə inkişaf etməyə başladı. Belə özəl ali təhsil müəssisələri təkcə paytaxtda deyil regionda da təşkil olundu. Buna misal olaraq Naxçıvan Özəl Universitetini göstərmək olar. Paytaxtdan kənarda yeganə özəl ali təhsil müəssisəsi olan Naxçıvan Özəl Universiteti də regional özəl ali təhsil müəssisəsi olaraq 1999-cu ildə təşkil olunmuş və eyni adla fəaliyyətini davam etdirir.

Respublikamızın ali təhsil sistemində olan tendensiyalardan biri də nazirlik və komitələrin nəzdində ali təhsil müəssisələrinin fəaliyyət göstərməsidir. Bu, müəssisələrin təşkili nazirlik və iqtisadiyyatın digər sahələri üçün yüksək ixtisaslı kadr hazırlanmasının vacibliyi ilə bağlıdır. Azərbaycan Dövlət Aqrar Universiteti 2009-cu ildən regional ali təhsil müəssisəsi kimi Gəncə şəhərində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərir. Bu ali təhsil müəssisəsində digər profillər üzrə də kadr hazırlığı aparılır.

Bütün sadalanan bu ali təhsil müəssisələri yarandığı gündən hər bir regionun əmək bazarına uyğun olan müxtəlif sahələr üzrə kadr hazırlığına başlamışdır. Yarandığı ilk vaxtlarda ixtisaslar, fakültələr nisbətən az olsa da, zaman keçdikcə ehtiyac duyulan sahələr üzrə yeni ixtisaslar təşkil edilmiş, təkmilləşdirmə kursları həyata keçirilmiş və dövrün tələblərinə, həmçinin tendensiyalara uyğun olaraq daimi yenilənir və genişləndirilir.

Regional ali təhsil müəssisələrini daha da inkişaf etdirmək və dünya təhsil sisteminə inteqrasiyasını həyata keçirmək üçün öz fəaliyyət planını yeniləməyi qarşıya məqsəd kimi qoymalıdır. Fəaliyyət planında əsas məsələlərdən biri ali təhsil müəssisələrində maddi-texniki bazanı, o cümlədən yeni nəşr olunan xarici və yerli pedaqoji ədəbiyyatın tədris planlarına daxil etmələridir. Bu prosesi həyata keçirmək üçün dövrün tələblərinə uyğun olaraq elektron kitabxanaların bazasını artırmaq mütləqdir. Araşdırmalar nəticəsində müəyyən olmuşdur ki, tələbələr keçilmiş mövzuya aid ədəbiyyatları tapmaqda çətinlik çəkirlər. Buna Azərbaycan dilində kifayət qədər vəsaitin olmaması xarici ədəbiyyatın qeyri-peşəkar tərcüməsi və ya son 20-30 ilin dərs vəsaitlərindən istifadə olunmasını göstərə bilərik. Həmçinin bəzi tərcümə olunmuş dərsliklər qrammatik və leksik normaların tələblərinə cavab vermir, hərfi tərcümə olunaraq dərsliyin elmiliyi itmiş görünür. Tələbə belə vəsaitlərdən istifadə edərkən mövzu üzrə hər hansı qanunauyğunluğu tapa bilmir. Vəziyyətin belə olmasının səbəblərindən biri də əsas nəşriyyatların elmi ədəbiyyatın tərcüməsinə marağın olmaması, kommersiya məqsədləri üçün əsasən bədii ədə-

biyyatların tərcüməsi ilə məşğul olmasıdır. Buna görə bu sahədə əsas iş ali təhsil müəssisələrinin üzərinə düşür.

Regional ali təhsil müəssisələri xarici ali təhsil müəssisələrində tədris olunan dərsliklərin tərcüməsinə xüsusi maraq və diqqət yetirərək bu problemi aradan qaldıra bilər. Ən əsası isə bu prosesi həmin sahənin peşəkarlarına həvalə etmək məqsədə uyğundur. Regional ali təhsil müəssisələrində təhsil alan tələbələrin keçirilmiş mövzulara aid materialların, mənbələrin əldə edə biləcəyi yer ali təhsil müəssisəsinin kitabxanasıdır. Kitabxana öyrənənlərlə biliklərin vəhdət təşkil etdiyi bir məkandır. Zəngin bir kitabxananın təşkil olunması hər bir regional ali təhsil müəssisəsinin ən ümdə vəzifələrindən biridir. Lakin bəzən müşahidə edirik ki, ali təhsil müəssisəsinin kitabxanası çox zəngin deyildir və əsasən Sovet dövründən qalma ədəbiyyatlar çoxluq təşkil edir. Zamana, inkişafa uyğun olaraq kitabxana fondu yeni daxili və xarici ədəbiyyatlarla zənginləşdirilməli, fondda elmi ədəbiyyatların sayı və həcmi artırılmalıdır. Bundan əlavə elektron kitabxana təşkil olunmalı, bütün tələbələrin e-kataloqdan istifadə etmələri üçün şərait yaradılmalıdır. Eyni anda daha çox tələbənin istifadə edə bilməsi üçün geniş oxu zalları fəaliyyət göstərməli, tələbələrə elektron kitabxananın resurslarından istifadə etmək üçün kompüterlər ayrılmalıdır. Tələbələrin dünyanın məşhur ali təhsil müəssisələrinin kitabxanalarından istifadə üçün giriş icazələri olmalıdır. Kitabxananın daim zənginləşdirilməsi üçün digər təhsil müəssisələrinin kitabxanaları, həmçinin M.F. Axundov adına Milli Kitabxana ilə daim əlaqə qurmalıdır.

Qloballaşma dövründə əmək bazarının işçilərə qoyduğu tələblərdən biri də yüksək keyfiyyətli, rəqabət qabiliyyətli kadrlardır. Ali təhsil müəssisəsi tələbəyə yüksək səviyyədə nəzəri bilik verməklə iş bitmir. Eyni zamanda tələbənin yüksək səviyyədə təcrübi bacarıqları da olmalıdır. Təcrübə isə ali təhsil müəssisəsinin laboratoriyalarında, müxtəlif idarə və müəssisələrdə həyata keçirilir. Bunları nəzərə alaraq regional ali təhsil müəssisələri təhsil müəssisəsi daxilində müasir laboratoriyaların yaradılmasını, son avadanlıqlarla təmin olunub tədqiqatlar aparmasını təmin etməlidir. Eyni zamanda bu ali təhsil müəssisəsinin yerləşdiyi şəhərdə, regionda olan idarə, müəssisə və təşkilatlarla əməkdaşlıq müqavilələri bağlayıb tələbələrin təcrübə keçmələrini təmin etməlidir.

Regionlarda yerləşən ali təhsil müəssisələrinin mövcud problemlərindən biri də tələbə yataqxanalarının az yerlik olması, müasir tələblərə cavab verməməsi və ya ümumiyyətlə olmamasıdır. Bu tələbələrə yetərincə çətinliklər yaradır. Bu problem sayəsində tələbələr ali təhsil müəssisəsindən uzaq məsafədə və aşağı şəraitlə təmin olunmuş mənzillərdə qalmağa məcbur olurlar. Bu vaxt itkisinə səbəb olur və tələbələrin tədris prosesinə mənfi təsir göstərir. Bu problemi aradan qaldırmaq üçün regional ali təhsil müəssisələri tələbə yataqxanalarının inşasını və müasir dövrün bütün texniki imkanları ilə təchiz etməsini prioritetdə saxlamalıdır. Son dövrlərdə biz artıq bu prosesin sürətlə başlamasını müşahidə edirik. Buna misal olaraq 2023-2024-cü tədris ilində LDU-da açılmış oğlan tələbələr üçün 250 yerlik tələbə yataqxanasını göstərə bilərik. Bu problemin aradan qaldırılması gənclər arasında regional ali təhsil müəssisələrinə marağın artmasına səbəb olacaqdır.

Regional ali təhsil müəssisələri regionun iqtisadi-ictimai, sosial-mədəni, təlim-tədris mərkəzi rolunu oynamaqla həmin regionda təşkil olunan bir sıra tədbirlərdə bilavasitə iştirak edir. Bu tədbirlərdə iştirak etmək üçün regiona gəlmiş xarici qonaqların nümayəndə heyətini qarşılayıb yola salmaq rolunu da yerinə yetirməlidir. Eyni zamanda regional ali təhsil müəssisəsinin xarici ali təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində həmin universitetlərin müəllimlərinin, əməkdaşlarının burada tədrislə məşğul olmaları da nəzərə alınmalıdır. Bunun üçün də regional ali təhsil müəssisələri nəzdində hotel tipli qonaq evlərinin fəaliyyət göstərmələri arzuolunandır. Respublikamızın regional ali təhsil müəssisələrində bu istiqamətdə işlərin aparılması, lazımi infrastrukturun qurulması məqsədəuyğundur.

İnformasiyanın çoxluğu və sərhədlərinin əlçatan olması qloballaşmaya müsbət təsir göstərsə də mənfi təsirləri də az deyil. Qloballaşma prosesinin mənfi cəhətlərindən biri gənclər arasında zərərli vərdişlərin sürətlə yayılmasıdır. Bu halların müəyyən hissəsi də ali təhsil müəssisələrində təhsil alan tələbələrinin payına düşür. Statistikaya nəzər yetirdikdə belə halların getdikcə artdığının şahidi oluruq. Bu halların baş verməsinin səbəblərindən biri də gənclərin asu-

də vaxtlarından düzgün istifadə etməməsi, müəyyən dərəcədə boşluqların olmasıdır. Bütün bunları nəzərə alaraq ali təhsil müəssisələri tələbələrin dərslərdən sonrakı vaxtını daha səmərəli keçirtmək üçün bir sıra işlərin həyata keçirilməsini ön plana çəkməlidir. Tələbələrin idmanın müxtəlif növləri ilə məşğul olmalarına şərait yaratmaq üçün universitetlərin nəzdində idman mərkəzlərinin tikilib istifadəyə verilməsi və ya ona yaxın ərazilərdə olimpiya idman komplekslərinin fəaliyyətinin genişləndirilməsi məqsədəuyğundur. Bu həm tələbələrin asudə vaxtının səmərəli keçməsinə həm də, gələcəkdə ali təhsil müəssisələri arasında keçirilə biləcək idman yarışları üçün peşəkar idmançılar, universitetin yığma komandası kimi formalaşmasına şərait yaradacaqdır.

Yüksək səviyyəli mütəxəssis kimi yetişmək üçün təhsilin bütün pillələrində davamlılıq, fasiləsizlik mühüm rol oynayır. Müstəqilliyimizin ilk illərindən başlayaraq son illərə qədər ölkədə elmi dərəcəsi olan kişi mütəxəssislərin sayı qadınlarla müqayisədə çox az idi. Və elmi dərəcəli kişi mütəxəssislərin yaşını müqayisə edəndə biz burada yaşlı nəslin nümayəndələrinin daha çoxluq təşkil etdiyini müşahidə edirdik. Bu haqda zaman-zaman araşdırmalar aparılmış, statistikalar cəmiyyətin nəzərinə çatdırılır, narahatlıq ifadə olunur, elmi dairələrdə həyəcan təbili çalınırdı. Əsas səbəblərdən biri elmi dərəcə almaq arzusunda olan çağırışçıların bakalavriat pilləsini bitirdikdən sonra hərbi xidmətə çağırılması, hərbi xidməti başa vurduqdan sonra isə əksəriyyətinin təhsilin sonrakı pillələrini davam etdirməməsi idi.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə ölkə prezidentinin qərarı ilə xarici ölkələrin ali təhsil müəssisələrində bakalavriat, magistratura və doktorantura pillələrində tibb təhsilində baza təhsil və rezidentura pilləsində təhsil alan Azərbaycan Respublikasının çağırışçılarının təhsil müddətləri bitənə qədər hərbi xidmətdən möhlət hüququ verildi.

Qanuna bu dəyişiklik ölkə gəncləri qarşısında dünyanın qabaqcıl təhsil müəssisələrində təhsil almaq imkanını daha da genişləndirdi, həmçinin müxtəlif illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə dövlət proqramı çərçivəsində dünyanın çoxsaylı nüfuzlu ali təhsil müəssisələrində təhsilini davam etdirməyə imkan yaratdı. Bu isə ölkə iqtisadiyyatının inkişaf etdirilməsində, rəqabət qabiliyyətinin artırılmasında, gənclərin yüksək səviyyəli mütəxəssis kimi formalaşması yolunda atılan əhəmiyyətli addım oldu.

Təhsilin fasiləsizliyinin təmin olunması istiqamətində atılan növbəti mühüm addımlardan biri də əyani təhsilalma formasında bakalavriatda, magistraturada, doktoranturada (adyunkturada), əsas (baza ali) tibb təhsili və rezidenturada təhsil alanlara-təhsilini bitirənədək möhlət hüququnun verilməsi ilə bağlı qanuna dəyişiklikdir. Bu dəyişiklik artıq respublikamızda fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil alan çağırışçılara bakalavriatdan sonra magistratura və doktorantura pillələrində təhsil müddəti bitənə qədər hərbi xidmətdən möhlət hüququ verdi. Bununla da respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində çağırışçıların magistratura və doktorantura, adyunktura və rezidentura pilləsində təhsilin fasiləsizliyi təmin olundu.

Ölkənin təhsil sistemində ali təhsilin fasiləsizliyinin təmin olunması istiqamətində atılan vacib addımlardan biri də 23 fevral 2021-ci il tarixdə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilərək: "Doktoranturaya qəbul üzrə ilk imtahandan müvəffəqiyyətlə keçən çağırışçılara – 3 ay müddətinə;" [4] məzmunda maddənin əlavə edilməsi oldu. Bununla da respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində kişi namizədlərin magistratura doktorantura adyunktura və rezidentura pillələrində təhsilin kəsilməzliyi təmin olundu.

Bu qərar doktoranturaya keçirilən qəbul imtahanlarının keçirilmə qaydası və ardıcıllığı ilə tənzimlənmişdir. Belə ki, "doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktorantların yaradılması və doktoranturaya qəbul Qaydaları" və həmin qaydalarda dəyişiklik edilməsi barədə Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli 443 nömrəli qərarı ilə tənzimlənir. "Doktoranturaya qəbul olmaq istəyən namizədlər xarici dildən (ingilis alman fransız dillərindən biri üzrə) fəlsəfədən və ixtisas fənlərindən qəbul imtahanı verirlər" [5].

Doktoranturaya qəbul prosesində xarici dil imtahanı Dövlət İmtahan Mərkəzi; fəlsəfə və ixtisas imtahanlarının qəbulu isə, ali təhsil müəssisələri və elmi təşkilatlar tərəfindən həyata keçirilir. Namizəd xarici dil imtahanından tələb olunan bal toplayarsa ardıcıllıqla növbəti imtahanlarda iştirak hüququ qazanır. Qeyd etdiyimiz bu imtahanlar müəyyən vaxt fasilələri ilə keçirilir. İmtahanlarda iştirak edib doktoranturaya qəbul olmaq üçün yuxarıda göstərdiyimiz qərar mühüm əhəmiyyətə malikdir.

Qeyd etdiyimiz qərarlar, qanuna düzəlişlər ölkə təhsilinin, eyni zamanda regional ali təhsil müəssisələrinin inkişafında, bu ali təhsil müəssisələrinin kadr potensialının gücləndirilməsində, rəqabət qabiliyyətinin artırılmasında, ölkənin ali təhsil, iqtisadiyyat və bütün digər sahələrin möhkəmlənməsi yolunda atılmış mütərəqqi bir addım idi. Bu sərəncamın müsbət nəticəsi artıq özünü göstərməyə başlamışdır. Belə ki, paytaxtda yerləşən və regionlarda fəaliyyət göstərən ali təhsil müəssisələrində elmi dərəcəli gənc kadrların sayı günü-günü artır. Bu eyni zamanda regional ali təhsil müəssisələrinin çəkisinin, nüfuzunun artmasına, professor-müəllim heyətinin gəncləşməsinə öz müsbət təsirini göstərir.

Son illər paytaxtda və regionlarda yerləşən ali təhsil müəssisələri arasında rəqabət artır. Bu ali təhsil müəssisəsinin özündə verilən təhsilin keyfiyyətində, əmək bazarında öz məzunlarının işlə təmin olunma faizinin artımında maraqlı olmasında özünü göstərir. Bildiyimiz kimi ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə ilə qəbul olan abituriyentlərin gələcəkdə əmək bazarında yüksək səviyyəli mütəxəssislərin olma faizi daha çoxdur. Bu eyni zamanda, həmin ali təhsil müəssisəsinin reytinqinin daha da artmasına səbəb olur. Buna görə ali təhsil müəssisələri çalışırlar ki, DİM-in (Dövlət İmtahan Mərkəzi) qəbul imtahanlarında daha yüksək bal toplayan abituriyentlər bu ali təhsil müəssisəsini seçsinlər. Bu nöqteyi-nəzərdən UNEC-in (Azərbaycan Dövlət İqtisad Universiteti) yüksək balla bu ali təhsil müəssisəsini seçən tələbələrə əlavə təqaüdün təsis etməsi təqdirəlayiq bir haldır. Düşünürük ki, regional ali təhsil müəssisələri də bu tipdə əlavə təqaüd proqramını həyata keçirsələr bu və ya digər regional ali təhsil müəssisələrinin reytinqinə və nüfuzuna müsbət təsiri olacaq.

**Problemin aktuallığı.** Təhsil hər bir cəmiyyətin tərəqqisində əsas rol oynayır. Ölkə əhalisinin təhsilə əlçatanlığının təmin olunması əsas prioritet məsələlərdən hesab edilir. Regional ali təhsil müəssisələri ölkə əhalisinin təhsil almasında getdikcə daha çox rol oynamağa başlayır.

**Problemin elmi yeniliyi.** Təhsilin əl çatanlığının təmin olunması dünyada vacib məsələlərdən biri sayılır. Regional ali təhsil müəssisələrinin bu problemin həllində rolu böyükdür. Bu məqsədlə regional ali təhsil müəssisələrinin maddi-texniki bazanın daha da təkmilləşdirilməsi ön plana çəkilərək bu istiqamətdə ciddi addımların atılması məqsədəuyğun hesab olunur. Regional ali təhsil müəssisələri yüksək bal toplayan abituriyentləri cəlb etmək məqsədilə xüsusi təqaüdlər və imtiyazlar ayıra bilməsi təklif olunur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə təqdim olunmuş fikirlər qloballaşma dövründə regional ali təhsil müəssisələrinin cəmiyyətin inkişafında, sosiallaşmasında müsbət rolunun danılmaz olduğunu və onun əhəmiyyətini bir daha təsdiqləyir.

## Ədəbiyyat:


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı
2. Cəbrayılov, İ.H. Müasir təhsil: Axtarışlar və Perspektivlər. / İ.H. Cəbrayılov. – Bakı: Mütərcim, – 2013. – 288 s.
3. Cəbrayılov, İ.H. Müasir təhsil: Problemlər və həlli yolları. / İ.H. Cəbrayılov. – Bakı: Mütərcim, – 2018. – 507 s.
4. https://e-qanun.az/framework/47074
5. https://dim.gov.az/activities/exams/doktorantura


**E-mail:** chunayev.mahamad@mail.ru
**Rəyçilər:** *ped.elm.dok., prof.* **V.Ö. Orucov,**
*filol.ü.fəls.dok.* **A.H. Nəzərova**
**Redaksiyaya daxil olub:** 31.01.2024.